# *Uğurlarımızın daha möhtəşəm olacağına inanıram*

**Azərbaycan müstəqilliyinin 29-cu ilinə qədəm qoyub. Hər Yeni il ərəfəsində qazandıqlarımızı götür-qoy edir, xalqımızın tarixində ötən ilin hansı izlər buraxdığını nəzərdən keçiririk. Məndən soruşsaydılar ki, sənin üçün ötən ilin ən əlamətdar hadisəsi nə oldu, tərəddüdsüz deyərdim: Cənab Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyət xadimləri ilə mart ayının 1-də keçirdikləri görüş.**



Bu unudulmaz bir görüş idi. Orada Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri–bəstəkarlar, memarlar, kinematoqrafçılar və digər sənət adamları iştirak edirdilər. Bilirsiniz, bu görüşün özəlliyi nədə idi, orada hər bir sənət adamına öz problemlərindən açıq danışmağa imkan yaradılmışdı. Mən də çıxış etdim. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqına yer verilməsini xahiş etdim. Artıq bizim bina məsələmiz həll olunmaq üzrədir.

Möhtərəm cənab Prezident bu görüşdən sonra yaradıcılıq ittifaqlarına və birliklərinə, o cümlədən filmlərin çəkilişi üçün vəsait ayrılması ilə bağlı sərəncamlar imzaladı. Bizim Kinematoqrafçılar İttifaqına da vəsait ayrıldı. Bu vəsait bizə imkan verdi ki, nəzərdə tutduğumuz mühüm layihələri reallaşdıraq. Beləliklə, veteran kinematoqrafçılara yardım fondu yaratdıq. Aprel ayından etibarən bu günə kimi ittifaqımızın üzvü olan veteran kinematoqrafçılar hər ay bu fonddan 200 manat məbləğində yardım alıblar. Bunları ona görə xatırladıram ki, dövlət başçımız ötən il mədəniyyətə xüsusi diqqət və qayğı göstərmişdir.

Kino işçilərinin peşə bayramı yüksək səviyyədə keçirildi. Dövlət başçımızın 1 avqust 2019-cu il tarixli sərəncamı ilə ittifaqımızın kino xadimlərinə Prezident təqaüdü, eyni zamanda, onlara fəxri adlar və mənzillər verildi.

Ölkəmizin mədəni həyatı daha da zənginləşdi. Xarici ölkələrlə mədəni və humanitar əlaqələr genişləndi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiyaya rəsmi səfəri bu ölkə ilə humanitar əlaqələrin gələcək inkişafı üçün yeni perspektivlər yaratdı.

Mən Kinematoqrafçılar İttifaqının kino xadimləri adından cənab Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım başda olmaqla bütün Azərbaycan xalqını Yeni il münasibətilə səmimi qəlbdən təbrik edir, doğma Vətənimizə əmin-amanlıq, sülh, uğurlu gələcək arzulayıram.

*Şəfiqə MƏMMƏDOVA,*
*Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri,*
*SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı,*
*Xalq artisti, professor*

Xalq qəzeti 2020.- 8 yanvar.- S.8.